**Azərbaycan Respublikası**
**Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının**
**SƏRƏNCAMI**

**№ 216** **« 30 » dekabr 2025-ci il**

**Binəqədi rayonu ərazisində süpürülüb yığışdırılan (küçə, səki, meydan, bağ və parklar) sahələrin dəqiqləşdirilməsi haqqında**

Son illərdə Binəqədi rayonu ərazisində geniş miqyaslı abadlıq və quruculuq işləri aparılmışdır. Küçələr və səkilər genişləndirilmiş, yeni yollar çəkilmiş, parklar və meydanlar yenidən qurulmuş və genişləndirilmişdir. Nəticədə rayon ərazisində süpürülən və yığışdırılan sahə genişləndirilmiş və dəqiqləşdirilməsinə ehtiyac yaranmışdır.

Binəqədi rayonu ərazisində süpürülən və yığışdırılan (küçə, səki, meydan, bağ və parklar) sahələrin dəqiqləşdirilməsi məqsədilə:

**Qərara alıram:**

1. Binəqədi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin xidməti ərazisində süpürülüb yığışdırılan (küçə, səki, meydan, bağ və parklar) sahələrin dəqiqləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın.

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Hacıbaba Babayev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Komissiyanın sədr müavini:**

| | |
|---|---|
| Azər Kərimov | Rayon təsərrüfatı şöbəsinin müdiri |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Elmin Zamanov | Binəqədi rayon MKTB-nin rəisi |
| Qasım Əbdürəhmanov | Binəqədi rayon MKTB-nin rəis müavini |
| Vəli Əliyev | Binəqədi rayon MKTB-nin baş mühəndisi |

2. Komissiyaya tapşırılsın ki, 10 gün ərzində süpürülüb yığışdırılan (küçə, səki, meydan, bağ və parklar) sahələrin dislokasiyasını tərtib edib təsdiq etmək üçün təqdim etsin.

3. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN